# “Paris üçbucağı” 3 nəfərin romanı

**Fəlsəfə üzrə fəlsəfə doktoru Adəm İsmayıl Bakuvinin “Paris üçbucağı” romanının təqdimat mərasimi keçirilib.**



Azərbaycan Milli İncəsənət Muzeyində baş tutan mərasimdə Milli Məclisin deputatları Ziyad Səmədzadə, Aydın Hüseynov, Etibar Əliyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, hüquq müdafiəçisi Novella Cəfəroğlu, digər ictimai xadim, alim və yazıçılar, eləcə də media və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirin əvvəlində görkəmli tarzən Ramiz Quliyevin ifasında Azərbaycanın milli musiqilərindən parçalar səsləndirilib.

Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirin aparıcısı Əməkdar jurnalist Qulu Məhərrəmli Adəm İsmayıl Bakuvinin ötən il təqdimatı olan “Məhşər divanı: Yalanın 17 anı” sənədli romanı haqqında xatırlatma verib. Qeyd olunub ki, “Paris üçbucağı” adlanan roman müəllifin sayca ikinci geniş həcmli əsəridir.

Aparıcı bu əsərin də oxucular arasında böyük uğur qazanacağına əminliyini söyləyib.

Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu müəllifi yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik edib və ona yaradıcılığında yeni uğurlar arzulayıb.

Milli Məclisin deputatı Etibar Əliyev çıxışında söyləyib ki, kitab təqdimatlarının keçirilməsi, əsərlərin yazılması cəmiyyətdə bu istiqamətdə aparılan ən böyük təbliğatdır. O, müəllifin yeni kitabının gənclərin dünyagörüşünün formalaşmasında müsbət təsir göstərəcəyini qeyd edib.

Hüquq müdafiəçisi Novella Cəfəroğlu çıxışında kitabın əhəmiyyətindən danışaraq azərbaycanlıların digər xalqlarla düşmənlik etmədiyini deyib. O, romanın Fransa və İsraildə də təqdimatının keçirilməsini təklif edib.

Tədbirdə qeyd olunub ki, əsərdə Ermənistan–Azərbaycan münaqişəsi geosiyasi maraqlar kontekstində araşdırılsa da, roman azərbaycanlı Ülvi və fransız Suzannanın ülvi, saf məhəbbətlərini özündə daşıyan melodramdır.

Əsər klassik üslubdan bir qədər fərqli, özünəməxsus şəkildə qələmə alınıb. Belə ki, roman oxuculara üç nəfərin: baş qəhrəmanlar və müəllifin dilindən çatdırılır.

Tarixi faktlarla zəngin, eyni zamanda, oxunaqlı dildə yazılmış əsərdə müəllif özünün ilk – “Məhşər divanı: Yalanın 17 anı” sənədli romanı ilə böyük məharətlə sintez yaradaraq oxucuya çatdırmaq istədiklərini maraqlı üsulla təqdim edir. Müəllif azərbaycanlı olmasına baxmayaraq obyektivlik və balansı qorumaq naminə qarşı tərəfə də söz haqqı tanıyır.

“Azərkitab” Yayınlarında işıq üzü görmüş kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, kitabın ilk saylarından biri Fransanın Azərbaycandakı səfiri xanım Ann Buayona təqdim olunub. Xanım səfir də hər kəsə “Paris üçbucağı” romanını oxumağı tövsiyə edib.

Xatırladaq ki, Adəm İsmayıl Bakuvi Bakı şəhərində anadan olub. Yüzlərlə analitik və publisistik məqalələr, 3 monoqrafiya, 20-yə yaxın elmi araşdırma müəllifidir. Onun ilk geniş həcmli “Məhşər divanı: Yalanın 17 anı” romanı ötən il çapdan çıxaraq oxuculara təqdim olunub.

***Leyla AZAD, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 1 iyun.- S.18.